Xalq tam şəffaflıq, günahkarların cəzalandırılmasını və ədalətin bərpasını tələb edir

2024-cü il dekabrın 25-də AZAL-a məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması bütün Azərbaycanı dərin kədərə boğdu. Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayan təyyarədə 67 nəfərdən 38-i həyatını itirdi, 29-u isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

Hadisənin yaratdığı təşviş təkcə uçuş sektorunda deyil, bütün cəmiyyətdə çox dərin iz qoydu. Pilotların peşəkarlığı və cəsarəti sayəsində çox sayda insanın həyatda qalması mümkün oldu. Xüsusən, kapitan İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov və stüardessa Hökumə Əliyevanın fədakarlığı dövlət tərəfindən yüksək qiymətləndirildi. Onlar canlarını qurban verməklə digər insanların həyatını xilas etdilər.

(davamı 11-ci səhifədə)

(əvvəli 1-ci səhifədə)

İlk dəqiqələrdən etibarən Prezident İlham Əliyev hadisəni şəxsi nəzarətinə götürdü. Dərhal aidiyyəti orqanlara qəzanın səbəblərinin araşdırılması və zərərçəkənlərə lazımi yardımın göstərilməsi üçün təlimatlar verdi. Hadisə ilə bağlı ölkəmizdə birgünlük matəm elan edildi, xalqın bu kədəri və faciəni birlikdə bölüşmənin bir rəmzi oldu. Təyyarənin dost və qonşu dövlət olan Rusiya tərəfindən vurulması cəmiyyətimiz tərəfindən böyük təəccüblə qarşılandı. Hər halda heç kim mülki sərnişin təyyarəsinin Rusiya hava məkanından raketlə vurulmasına inana bilmirdi. Amma ilk

Xalq tam şəffaflıq, günahkarların cəzalandırılmasını və ədalətin bərpasını tələb edir

baxışdan təyyarəyə xarici müdaxilə olunduğu aydın sezilirdi.

Azərbaycan dövləti prinsipial mövqeyini bir daha ortaya qoydu: məsuliyyət daşıyanlar cəzalandırılmalı, zərərçəkmişlərə və onların ailələrinə təzminatlar ödənilməlidir. Bu, təkcə beynəlxalq hüquq normalarının tələbi deyil, eyni zamanda milli qürurun və insan haqlarının müdafiəsinin bariz nümunəsidir.

Təəssüf ki, bu həssas mövzudan manipulyasiya etməyə çalışan qüvvələr də boş dayanmadı. Xüsusilə də bəzi rusiyalı blogerlər və manipulyativ şəbəkələr hadisəni təhrif etməklə ictimai rəyi çaşdırmağa cəhd göstərdilər. Məsələn, "qara qutu"ların Braziliyaya göndərilməsi xəbəri yayıldıqdan sonra Rusiya mediası həqiqətləri təhrif edən manipulyativ məlumatları yaymağa başladı. Ancaq Prezident cənab İlham Əliyevin qətiyyətli tələbləri - məsul şəxslərin cəzalandırılması və bütün həqiqətlərin ortaya çıxarılması istiqamətindəki mövqeyi - bəzi dairələrdə narahatlıq yaratdı. Rusiyanın hadisələri təhrif etməyə çalışması və gündəmi yayındırmaq cəhdləri bunu açıq şəkildə nümayiş etdirir. Əslində, Rusiyanın bəzi media orqanlarının "quş sürüsü ilə toqquşma" və ya "hava balonunun partlaması" kimi absurd iddialar irəli sürməsi rəsmi Kreml üçün məsuliyyətdən yayınmaq cəhdi idi. Lakin Azərbaycan tərəfinin sərgilədiyi prinsipial mövqe bütün bu spekulyasiyaları boşa çıxardı. Rusiya məsuliyyəti boynundan atmağa çalışsa da, cənab İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyi hər şeyi dəyişdi. Azərbaycan xalqının iradəsi ilə dəstəklənən bu mövqe Rusiyanı məsələyə adekvat yanaşmağa məcbur etdi. Bu çətin şəraitdə belə, Rusiya Prezidenti Vladimir Putinin cənab İlham Əliyevə zəng edərək üzr istəməsi və hadisənin araşdırılması üçün bütün səylərin göstəriləcəyini bildirməsi strateji tərəfdaşlıq çərçivəsində atılan ən mühüm addımlardan biri idi. Çeçenistan hökumətinin sonradan etdiyi yardım təklifi isə Azərbaycan tərəfindən bu cür cavablandırıldı: "Azərbaycanın heç bir köməyə ehtiyacı yoxdur. Nə dövlət, nə də vətəndaşlar belə yardımı qəbul edəcəklər. Biz vətəndaşlarımıza lazımi yardımları göstəririk və göstərəcəyik. Azərbaycan faktın qəbul edilməsini, üzr istənilməsini və müvafiq təzminatın ödənilməsini tələb edir".

Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərində baş verən faciəsi təkcə dərin kədər deyil, həm də şücaət və xilaskarlıq tarixçəsi yazdı. Təyyarə ekipajının qəza anında göstərdiyi qəhrəmanlıq Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Onlar öz həyatlarını təhlükəyə ataraq, digər sərnişinlərin həyatını xilas etməyi bacardılar və bu fədakarlıq əsl vətənpərvərlik və peşəkarlıq simvoludur. Dövlət başçısı bu əzmi yüksək qiymətləndirərək onlara ölümündən sonra Milli Qəhrəman adının verilməsilə bağlı Sərəncam imzaladı. Sağ qalan digər ekipaj üzvləri isə "Rəşadət" ordeni ilə təltif edildi. Faciənin baş verdiyi ilk andan etibarən Prezident İlham Əliyevin liderlik qabiliyyəti və operativ reaksiyası bir daha özünü göstərdi. Dövlət başçısı hadisə ilə bağlı dərhal Heydər Əliyev Beynəlxalq Aeroportunda fövqəladə müşavirə keçirdi və məsələyə ən yüksək səviyyədə müdaxilə etdi. MDB Zirvə görüşündə iştirak etmək üçün Sankt-Peterburqa səfərdə olan prezident hadisə haqqında məlumat alan kimi öz təyyarəsindən müvafiq göstərişlər verdi. Prezidentin Baş nazir ilə dərhal əlaqə saxlaması, xüsusi komissiyanın yaradılması və Azərbaycan nümayəndə heyətinin təcili olaraq Aktau şəhərinə ezam olunması dövlət rəhbərliyinin məsələyə nə qədər həssas yanaşdığını sübut etdi.

Prezident İlham Əliyevin yanvarın 6-da qəza nəticəsində həlak olan ekipaj üzvlərinin ailələri və sağ qalan təyyarə bələdçiləri ilə görüşü Azərbaycan dövlətinin öz vətəndaşlarının yanında olduğunu bir daha göstərdi. Görüş zamanı Prezident bəyan etdi ki, bu faciənin məsuliyyəti Rusiya tərəfinin üzərindədir və Azərbaycan xalqı tam şəffaflıq, günahkarların cəzalandırılması və ədalətin bərpasını tələb edir. Azərbaycan xalqı, öz dövlət başçısının nümayiş etdirdiyi prinsipial mövqedən qürur duyur. İlham Əliyevin sərgilədiyi bu liderlik göstərir ki, nə beynəlxalq təzyiqlər, nə də təhrif edilmiş məlumatlar ədalətin zəfərinə mane ola bilməz. Bu mövqe yalnız Azərbaycan xalqının milli iradəsini deyil, həm də insan hüquqları və beynəlxalq hüquq normalarının qorunmasına olan sarsılmaz bağlılığı ifadə edir. Qəhrəmanların xatirəsi, ədalət mübarizəsi və liderliyin parlaq nümunəsi kimi yadda qalan bu hadisə Azərbaycan xalqının birlik və qətiyyət simvoluna çevrildi. Azərbaycanın haqq səsi bir daha dünyaya nümayiş etdirildi.

Musa BAĞIRLI,
"Respublika".

Respublika .- 2025.- 22 yanvar (№ 13).- S.1;11.